MİNGƏÇEVİR DÖVLƏT UNİVERSİTETİ

*Dayanıqlı inkişaf, cild 3, № 1, 2023*

UOT 902

# QARABAĞ MÜNAQİŞƏSİ VƏ TARİXİ HƏQİQƏTLƏRƏ ELMİ BAXIŞ

**Tahirə Əli qızı Quliyeva**
Mingəçevir Dövlət Universiteti
tahire.quliyeva@mdu.edu.az

***Xülasə:*** *Məqalədə Qarabağ münaqişəsinə, Qarabağın qədim və yeni tarixinə elmi realizm prizmasından baxılmış, vulqar miflər üzərində qurulmuş erməni yalanları ardıcıl və metodiki şəkildə ifşa edilmişdir. Elmi nöqteyi-nəzərdən və realist üslubda Qarabağın tarix boyu türk-müsəlman dünyasına mənsubiyyəti sübuta yetirilmiş, onun Azərbaycan yurdu kimi spesifik mənəvi-hüquqi statusu sübuta yetirilmişdir. Türk-müsəlman dünyası üçün Qarabağın müstəsna ruhani, tarixi-mədəni və strateji əhəmiyyəti məqalədə xüsusi olaraq vurgulanmışdır. Dağlıq Qarabağın "30 nəfərlik erməni icmasının maraqları naminə" 20.000 km*$^2$ *Azərbaycan ərazisinin niyə viran qoyulması, 1 milyon insanın öz doğma yurdlarından niyə qovulması, 30 il keçsə də bu münaqisənin niyə həllini tapmaması kimi suallara adekvat cavablar verilmişdir. Məqalədə, ermənilərin həqiqi mahiyyəti açıqlanmış, onların regionda münaqişə partiyasını və siyasi intriqaları dəstəkləyən dagıdıcı, destruktiv rolu müəyyən edilmiş, onlardan və Qarabağ düyünündən türk-müsəlman dünyasını parçalamaqda bir alət kimi istifadə olunması təsdiq edilmişdir.*

***Açar sözlər:*** *Qarabağ, türk dünyası, islam sivilizasiyası, türk-müsəlman arealı, türk-müsəlman kosmopolirizmi, türk-müsəlman passionarlığı*

## Giriş

Şərqin müasir tarixində həlli qaranlıq dalana dirənmiş qarşıdurmalardan biri də Qarabağ münaqişəidir. Qarabağ münaqişəsi tək Azərbaycanlılarla ermənilər arasında baş verən məhəlli münaqişə deyil. O, müxtəlif sivilizasiyalar və ideologiyalar arasında cərəyan edən çoxəsrlik mücadilənin süjetidir. Dünya güclərinin klassik strategiyaya və yeni texniki üsullara əsaslanan toqquşmasıdır. Armageddon senarisinin ilkin sınaq aktıdır. O, qlobal siyasətin yeni şəraitdə dünya nizamında və planetin siyasi xəritəsində şəxsi maraqlarına uyğun strateji korrektivlər etmək üçün istifadə etdiyi və hiyləgər bir mexanizmin ərsəyə gətirdiyi üzdəniraq nailiyyətin acı bəhrəsidir. Bu mexanizmdə ermənilərin rolu "sözəbaxan və qəza qurbanı üçün nəzərdə tutulan piyada" statusundan başqa bir şey deyil. Qlobal siyasət uyğun şərait yetişəndə böyük məmnuniyyətlə bu piyadaları öz maraqları naminə qurban verəcək. Lakin bu böyük oyunda ermənilərin bir alət kimi seçilməsinin haradan bəhrələndiyini də unutmaq lazım deyil. Qlobal siyasətin Şərqlə Qərb, Avropa ilə Asiya, xristian aləmilə müsəlman dünyası arasında "etibarlı demarkasiya xətti" cızmaq, bu xətti daim möhkəmləndirmək, tarixi şərait yetişəndə onu daha da əlverişli və strateji mövqelərə doğru uzadaraq türk-müsəlman dünyasını yeni şiddətlə və israrla parçalamaq işində erməni faktorundan daha əlverişli və sınanılmış başqa bir faktor ola bilməz. Çünki Şərqin zəngin tarixində türk və müsəlman dünyasına ermənilər qədər müxalif olan, türk-müsəlman genotipinə onlar qədər nifrət edən, türk müsəlman tarixinə onlar qədər qısqanclıqla yanaşan başqa bir neqativ potensiya təsəvvür etmək mümükn deyil. Azərbaycana və azərbaycanlılara qarşı düşmənçiliyin və fobiyanın degenerativ erməni təbiətinə genetik şəkildə, apriori məxsus olması, bu üzdəniraq toplumun daim neqativ cövhərdən güc alması çoxlu sayda suallar dögurur. Ermənilər türk və müsəlman sivilizasiyasının tarixi uğurlarına Qabil üslubunda "qara paxıllıq" edirlər. Elə bir paxıllıq ki, onun dağıdıcı psixoloji təsirindən onlar zaman-zaman kütləvi psixoz yaşayır, reallığı unudur, başlarını itirir, illüziyalara qapılır, xəyalın dili ilə danırşır, tarixi paranoyanın əsirinə çevrilirlər. Əslində ermənilərə Qarabağ lazım deyil. "*Ubi bene ibi patria*" ("Harada günün xoş keçirsə, ora da vətəndir") prinsipi ilə yaşayan yurdsuz ermənilər böyük məmnuniyyətlə həmişə özgə olduqları və min bir fitnə-fəsadla ələ keçirdikləri əzəli Azərbaycan yurdlarını – İrəvanı, Zəngəzuru və Dağlıq Qarabağı Fransada,  Kaliforniyada və ya Avstraliyada bir rayona dəyişərdilər.

**Erməni yalanlarının mahiyyəti və məqsədləri**

Ermənilərin Qarabağın dağlıq hissəsinə iddiaları ilə bağlı ortaya çıxan ilk məntiqi sual oradakı qondarma toponimlərlə bağlıdır. Əgər ermənilər Qarabağın qədim sakinləridirlərsə nə üçün bu gün Qarabağda kompakt yaşadıqları əsas yaşayış məntəqəsi "Stepanakert" adlanır? Sovet dövrünün üzdəniraq qəhrəmanlarının ismini daşıyan şəhərlərin adları hər yerdə çoxdan dəyişdirilib. Bəs niyə Qarabağda yaşayan ermənilər bunu etməyiblər? Burada iki gizli səbəb üzə çıxır: birincisi, ermənilərin hansı əqidəyə mənsub olmalarından asılı olmayaraq yalnız "bir ülvi xislət"ə – qatı millətçiliyə, faşizmə və şovinizmə qulluq etmələridir. Hər kəsə çoxdan məlumdur ki, Styopa (Stepan Şaumyan), Andranik (Ozanyan), Kamo (Simon Ter-Petrosyan), Dro (Drastamant Kanayan) kimi saxta və rəzil "erməni qəhərəmanları" fərqli ideologiyaların mənsubları olsalar da onları daim bir ideya birləşdirirdi – türk-müsəlman düşmənçiliyi. Buna görə də bolşevik-şovinist Stepan da, nasist-başkəsən Andranik də, tsexakron-polisay Qaregin də, faşist-daşnak Dro da ermənilər üçün daim aktualdır, təki türk-müsəlman qanı axıtmaqdan diksinməmiş olsunlar. Digər bir faktor onunla əlaqədardır ki, ermənilər hətta istəsələr də əsası 1923-cü ildə qoyulmuş Stepanakertin adını dəyişib başqa ad qoya bilməzlər. Çünki həmişə Xanbağı, Xankəndi, Qarabağ elatlarının yurdu kimi adlarla tanınan bu ərazi Qarabağın türk-müsəlman hökmdarlarının yay iqamətgahı olub. Digər bir əski, yaxud yeni tarixi ad isə məlum deyil. Odur ki, ən yaxşısı 1918-ci ildə Bakıda və Azərbaycanın digər yaşayış məntəqələrində on minlərlə türk-müsəlman qanı axıtmış Stepanın adı qalsın [8, s. 38-39].

Ermənilər 1828-ci ildə Rusiyanın həyata keçirdiyi köçürmə siyasəti nəticəsində İrandan və Osmanlı imperiyasının ərazisindən Cənubi Qafqaza, xüsusilə də İrəvana və Qarabağın dağlıq hissəsinə gəlmələrini həyasızcasına "tarixi ədalətin bərpa edilməsi" kimi qələmə verir və bu hadisəni "repatriasiya" kimi təqdim etməyə çalışırlar. Burada da "məzlum ermənilərin" plagiat üslubu açıq-aydın görünür. Ermənilər bu senaridə özlərini yəhudilərə tay tutmaq, Babil hökmdarı II Navuhodonosorun sərkərdəsi Navuzardan (Nabuzereddin) tərəfindən e.ə. 586-cı ildə Yərusəlimin (əl-Qüds) dağıdılması və yəhudilərin Babilistana köçürülməsi hadisəsi [11, s. 113] ilə eyniləşdirmək, bununla da cılız tarixlərinə dividendlər gətirmək istəyirlər. Özlərini az qala Dağlıq Qarabağın avtoxtonları adlandıran və guya Əmir Teymur, Şah Abbas, Nadir şah və başqa türk fatehləri tərəfindən İrana "sürgün edilən məzlum ermənilər", əgər həqiqətən də əvvəllər kütləvi şəkildə burada yaşamışlarsa, nə səbəbdən öz "qədim yurdlarının" adlarını bilmirlər? Tarixlərini Nuh əyyamına calayan ermənilər nə yaxşı 200-300 il əvvəl deportasiya olunan zaman Zori Balayanın həyasızcasına "Ocaq" adlandırdığı yurdun erməni adlarını belə unudublar? Qarabağda türk-müsəlman tarixi ilə bağlı olmayan yalnız bir neçə tarixi obyekt (Arsax, Qanzasar, Amaras, Dədivəng, Çiləbörd, Xaçen, Dizaq və s.) var ki, onların da erməni tarixi ilə hər hansı əlaqəsi belə yoxdur [10, s. 199]. Erkən xristianlığın yayıldığı dönəmlərdə həmin obyektlər dini missionerliyin mərkəzləri olmuşlar və onlar bilavasitə Albaniya tarixi ilə bağlıdır. Qədim Albaniyadan miras qalmış belə dini-mədəni izlər bu gün Cənubi Qafqazın hər yerində var. Xoşbəxtlikdən ermənilər Cənubi Qafqazın hər yerində yoxdur. Əks halda "azacıq sahibsiz qalan hər bir obyekti özlərininki elan edərdilər". Ermənilərin son bir neçə əsr ərzində yerdəyişmələrinin səbəbinə gəldikdə isə bu nə deportasiya, nə sürgün, nə də repatriasiya deyil. Sadəcə ermənilər türk-müsəlman xalqlarını köçəri adlandırdığı halda, özlərinin klassik köçəri olmalarını unudurlar. Bu gün də ermənilər həm Ermənistanı, həm də Qarabağı kütləvi şəkildə tərk edib gedirlər. Bütün Dağlıq Qarabağda ermənilərin ümumi sayı Azərbaycanın hər hansı bir administrativ rayonunun əhalisindən qat-qat az (20-30 min nəfər) oldugu halda, onların üzdəniraq təhlükəsizliyinin təmin edilməsi üçün 2 Livan ərazisinə və yaxud 1 İsrail ərazisinə bərabər Azərbaycan torpaqları 20 il ərzində işğal altında olub, bütün infrastruktur darmadağın edilib, 1 milyondan çox azərbaycanlı ata-baba yurdlarından vəhşi üsullarla qovulub. Region və dünya üçün heç bir iqtisadi-mədəni faydası olmayan 20-30 min nəfərin, guya "təhlükəsiz yaşaması" üçün regiona və dünyaya kənd təsərrüfatı məhsulu baxımından misli görünməmiş iqtisadi səmərə gətirməyə qadir olan yeddi rayonun səhraya çevrilməsi nə qədər

vacibdi? Yəni 20-30 min yurdsuz erməni bu qədər qiymətlidir ki, 10 milyon azərbaycanlı 30 ildir ki, bundan əziyyət çəkir?

**Türk və azərbaycanlı arealının sərhədləri**

Bəli, erməni tarixçiləri öz köçəri tarixlərini ört-basdır etmək məqsədilə azərbaycanlıları köçəri adlandırırlar. Amma ermənilərin yəqin ki, Qədim və Orta əsrlər tarixindən ya xəbərləri yoxdur, ya da yalançı tarixçələri onların gözlərini elə qapayıb ki, əsl həqiqəti görə bilmirlər. Ermənilər unudurlar ki, tarixən Böyük Türk dünyasının tərkibinə Qafqaz, Kiçik və Mərkəzi Asiya, İran və digər coğrafi ərazilər aid olub. Dərbənddən Zəncana, Qəzvinə və Həmədana qədər geniş bir məkan isə artıq 2 min ildir ki, Azərbaycandır. Ermənilərin üzdəniraq "Böyük Ermənistan" adlandırdığı abstrakt və qondarma əyyamda da, erkən xristian əyyamında da, islam sivilizasiyasının təşəkkülü inkişafı və möhtəşəm bir məkanda bərqərar olduğu dövrdə də bu belə olub və gələcək tarixi senarinin necə olacağından asılı olmayaraq həmişə belə olacaq. Unutmaq lazım deyildir ki, Mərakeşdən Malayziyaya qədər bütün ərazilər artıq 1500 ildir ki, türk və islam sivilizasiyasının Böyük Vətənidir [5, s. 70-80]. Hətta erkən orta əsrlərdə Orta və Mərkəzi Asiyada (Toharistan şahı Barxa təkin) əsas etnik tərkibini türklər təşkil etməyən ərazilərdə (Əfqanıstan, İran, Tacikistan, Hindistan) belə türk sülalələrini təmsil edən şahlar hökmranlıq etmişlər [1, s. 14-15]

Türklərin köçəriliyinə gəldikdə reallıq hissini itirmiş ermənilər unudur ki, tarixən Aralıq dənizindən Hindistan civarına qədər uzanan möhtəşəm Türk dünyasında daim spesifik türk-müsəlman kosmopolitizmi mövcud olub. Türk xalqalrı ucsuz-bucaqsız bu yurdları öz Böyük Vətənləri hesab ediblər. Əgər bu və ya digər səbəbdən türk xalaqları bu böyük yurdlarının bir guşəsindən digərinə köçüblərsə bu məgər köçərilikdi? Axı o, özünün Böyük türk-müsəlman vətənində yerdəyişmələr edir. Amerikaya, Yaponiyaya və ya Fransaya köçmür. Bəşəriyyətin tarixi məgər xalqların davamlı köçü və yerdəyişməsi deyilmi? Roma imperiyası süqut edəndə Avrpoada "Xalqların böyük köçü" adlanan qlobal proses baş vermişdi və o, qitədə ispanların, fransızların, ingilislərin, almanların və başqalarının timsalında yeni etnik birliklərin yaranması ilə nəticələnmişdi. Lakin bununla əlaqədar genomları qot passionarlığından bəhrələnən müasir fransızları, ispanları, almanları, ingilisləri və başqa xalqları heç kim köçəri adlandırmır [9, s. 96]. Qeyd etmək lazımdır ki, miqrasiya qədim və orta əsrlər tarixinin məzmununu təşkil edən miqrasiya məsələsi iqtisadi məsələdir, lakin ermənilər üçün bu yalnız "yurd axtarışı"dır.

Türk-müsəlman kosmopolitizmi ilə bağlı çox sayda nümunələr gətirmək olar. Məsələn, Dədə Qorqud (Mərkəzi Asiya ekvivalenti Manas) özünü bütün türk dünyasının patriarxı kimi Yeniseydən Fərat çayına qədər böyük bir ərazidə təsdiq etmişdi. Fateh kimi Qərbi Asiyaya yürüşlər edən Əmir Teymur Qarabağı, Bağdadı, Hicazı öz doğma Səmərqəndini sevdiyi qədər sevirdi. Əfşarilər türk nəslinin məşhur nümayəndəsi Nadir şah özü Xorasan kökənli (Dərəgöz kəndi) olduğu halda həm Qərbi Türküstanı, həm Azərbaycanı, həm də İranı öz doğma vətəni hesab edirdi və Hindistandan Anadoluyadək türk yurdunun aşiqi idi. Şah İsmayıl bütün türk tayfalarını vahid Səfəvi-Qızılbaş məfkurəsi ətrafında birləşdirməklə möhtəşəm türk-müsəlman kosmopolitizminin (Böyük türk dünyasının vətəndaşı) sərhədlərini 3,5 milyon $km^2$ ərazidə bərqərar etmişdi.

Digər bir vacib sual ermənilərin "tarixi izlər"i ilə bağlıdır. Əgər ermənilər belə qədim və qüdrətli bir millətin nümayəndələridirlərsə nə üçün dövlətçilik tarixləri haqqında "stand up" üslubunda bəsdələdikləri əsatirlərdən başqa tarixdə hər hansı real faktları yoxdur? Çünki türk və müsəlman passionarlığı 2500 ildir ki, dünya tarixini, özəlliklə də Şərqin tarixini müəyyən edir. Onun adı yüzlərlə dövlətin təşəkkülü və inkişafı ilə, möhtəşəm azadlıq mübarizəsi ilə bağlıdır. 2000 ildir ki, türk-müsəlman xalqları qoca dünyanın çərxini hərəkətə gətirərək şanlı tarix yazır, bəşəriyyətə peyğəmbərlər, imamlar, dünya şöhrətli mütəfəkkirlər, dahi sərkərdələr, alimlər, tarixçilər, şairlər, yazıçılar bəxş edir. Bu zaman riyakar, hiyləgər və saxtakar erməni potensiyası qalalarda, monastırlarda qüdrətli hökmdarların himayəsinə sığınaraq intiriqalarla, başqa xalqların

tarixini dəyişərək öz adlarına çıxmaqla məşgul olurlar. Ermənilərin təbiətdən gələn məzmunu budur. Onların bütün cılız tarixi fəaliyyəti yaratmağa və xeyirxahlığa deyil, dağıtmağa və şər yaratmağa istiqamətlənib. Erməni fəallığının, erməni passionarlığının gücü daşnaksütyun, tsexakronizm, Nemezis kimi barbar ideyalarını tərənnüm edən vəhşi təfəkkür səviyyəsindən kənara çıxmır.

**Türk passionarlığı və erməni saxtakarlığı**

Passionarlıq nəcib xalqlara məxsus elə bir fenomendir ki, bu zaman konkret zaman və məkan hüdudlarında baş verən kütləvi mutasiyalar tarixin gərdişini dəyişməyə qadir olan əqli, ruhani və fizioloji titrəyişlərə gətirib çıxarır və bütün bunlar ümumbəşəri aktivliyin fövqəladə yüksəlişinə səbəb olur. Bu hadisə, bir qayda oalaraq, həm planetdə cərəyan edən fövqəladə hadisələrlə, həm də səmavi proseslərlə şərtlənir [4, s. 155]. Görkəmli rus etnoloqu və filosofu *Lev Nikolayeviç Qumilyova* (1912-1992) məxsus "*Etnogenezin passionalıq nəzəriyyəsində*" iddia olunur ki, passionarlıq Günəşdə dövrü şəkildə baş verən *protuberan* (lat. *protubero* – şişirmək - Günəş tacına nisbətən soyuq maddənin sıx kondensasiyası və onun maqnit sahəsi qismində Günəş səthindən yuxarı qalxaraq asılması) hadisəsinin, həmçinin Yer kürəsi səthinin süalanmasının nəticəsidir [7, s. 5-8]. Belə çıxır ki, bu hadisə birbaşa səmavi nurla bağlıdır. L.Qumilev bu "nurlanma hadisəsilə" bağlı tərtib etdiyi xəritədə Qədim Misir sivilizasiyasında baş verən passionarlıq partlayışından Çində və Koreyada baş verən mədəni inqilablara qədər bəşər tarixinə möhtəşəm töhfələr vermiş etnosların və superetnosların – qotların, samilərin, hiksosların, iskitlərin, yəhudilərin, ellinlərin (yunan sivilizasiyası), qalların, hetlərin, farsların, slavyanların, romalıların, frankların, hunların, skandinavların (vikinqlər), hamilərin, ərəblərin, arilərin, saksların, monqolların, səlcuq və osmanlı türklərinin adlarını çəkir. Lakin nədənsə bu xəritədə erməni, muşk, hayk və ya buna oxşar başqa bir ad çəkilmir. Bununla belə, ermənilər bütün dünyaya car cəkirlər ki, az qala əfsanəvi Nuh əyyamından bu yana Şərqin və Qərbin tarixini üzdəniraq "erməni passionarlığı" müəyyən etmiş və tarixə "Böyük Ermənistan" kimi dövlətçilik nümunəsi bəxş etmişdir. Lakin həqiqətdə erməni fəallığının ərsəyə gətirdiyi bir dənə olsun işıqlı, pozitiv və proqressiv səhifə tapa bilməzsən. XIX yüzilin sonu, XX yüzilin əvvəllərində türk-müsəlman passionarlığı möhtəşəm xariqələr yaradanda, demokratik və sivil prinsiplərə əsaslanan həyat quranda, erməni xisləti nəcib xalqların ilahi və bəşəri haqlarını mənimsəmək, Azərbaycan-türk yurdlarını – Zəngəzuru, İrəvanı, Dağlıq Qarabağı ələ keçirmək üçün təşkilatlanır və müdhiş planlar hazırlayırdı. Əlbəttə ki, onların bu planlarının məzmunu və taktikası fitnə-fəsada, zorakılığa və terrorizmə əsaslanırdı. Təkcə üzdəniraq erməni milli ideyasının üzdəniraq "şah əsəri" sayılan "Daşnasütyun"un ("Birlik", "İttifaq") məzmununa qzacıq nəzər yetirmək kifayətdir ki, erməni təbiətinin bütün fitnə-fəsadını, onun yalnız neqativ ünsürlərdən toxunmuş mərəzli potensiyasının çılız obrazını görəsən. Öz çirkin məqsədlərinə çatmaq üçün onlar bütün rənglərdə və xislətlərdə olan partiya, təşkilat, hərəkat, qruplaşma və yaxud rejimlə əməkdaşlıq etməyə hazır idilər. II Dünya müharibəsində alman faşistləri ilə əməkdaşlıq etməklə ermənilər əsl xislətlərini daha parlaq şəkildə açıb göstərdilər. 1985-ci ildə isə erməni xislətinin güzgüsü olan bu üzdəniraq təşkilat ermənilərin heç bir hüquqi və tarixi əsası olmayan "Vilson sərhədləri" (22 noyabr 1920-ci il tarixində ABŞ prezidenti V.Vilsonun arbitrajlığı ilə müəyyən edilmiş, lakin heç bir təşkilat tərəfindən ratifikasiya olunmamış təklif) adlandırdığı bir məkanda (Naxçıvan, Qarabağ və Axalkalaki) "Vahid və müstəqil Ermənistan" yaratmağı özünün "əsas siyasi məqsədi" elan etdi. Anadolu türklərinin və azərbaycanlıların "məzlum ermənilərə onların haqq yolunda" maneə törədən əsas düşmənlər olması açıq tekstlə təsdiq olundu [6, s. 19-28]. Bu gün ermənilər "itirilmiş arzuları" adlandırdıqları bu hadisəyə dividend qazandırmaq üçün bir sıra Qərb tarixçilərinin və hüquqsünaslarının "yazı naminə yazdıqları"nı interpretasiya edərək, "acı göz yaşları tökürlər" [12, s. 265]. Ermənilərin böyük fəxarətlə bütün dünyaya təqdim etdikləri Daşnaksütyunun mahiyyətini daha dəqiq açıqlayan "Nemezida" terror aktı, Türkiyənin və

Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli dövlət xadimlərinin (AXC-nin Baş naziri Fətəli Xanxoyskinin -19.06.1920, AXC parlamentinin sədr müavini Həsən bəy Ağayevin - 19.07.1920, Osmanlı dövlətinin daxili işlər naziri Tələt paşanın - 15.03.1921, AXC-nin daxili işlər naziri Behbud xan Cavanşirin - 19.07.1921, Türkiyənin hərbi-dəniz naziri Əhməd Camal paşanın - 25.07.1922) qətlə yetirilməsi ermənilərin qorxaq xislətini, onların yalnız arxadan vurmaq qabiliyyəti olmasını bir daha sübuta yetirir. Erməni kökənli Fransa eksperti Jerard Şalyanın sərsəm iddiasına görə, guya bu terror aktı ədalətin terror yolu ilə bərqərar edilməsi kimi təzahür edən nadir tarixi hadisədir [13, s. 194]. Hətta ermənilər üzdəniraq qəhrəmanlıqlarına qəhrəmanlıq qatmaq üçün Orta Asiyada bolşeviklərə qarşı mübarizədə iştirak etmiş və 1922-ci ilin 4 avqust tarixində indiki Tacikistan ərazisində qəhrəmancasına həlak olmuş Türkiyənin keçmiş baş naziri İsmayıl Ənvər paşanın ölümünü bolşevik komandirlərindən birinin, əslən Gəncədən olan Yakov Melkumovun (Melkumyanın) adı ilə bağlayırlar və iddia edirlər ki, guya bu üzdəniraq "xalq qisasçısı" Ənvər paşanı Buxara əmirliyinin ərazisində "şəxsən axtarıb tapmış və qətlə yetirmişdi". Bu ağ yalanı 1930-cu ildə Sovet dövlətinə xəyanət etmiş və buna görə də 1937-ci ilin avqust ayında Fransada DİXK əməkdaşları tərəfindən qətlə yetirilmiş Georgi Aqabekov (əsl familiyası Arutyunov) yazır [2, s. 12-13]. XX əsrin 20-ci illərində Orta Asiyada baş vermiş hərbi əməliyyatların iştirakçısı, rus generalı Vladimir İvanoviç Uranov (1900-1987) isə öz xatirələrində qeyd edir ki, Ənvər paşa Belcuandan (Tacikistan) 25 km aralıda döyüşlər zamanı həlak olmuşdu [3, s. 114]. II Dünya müharibəsinə qədər isə "Məzari-Həzrəti şah" kimi tanınan Ənvər paşanın qəbri əsl ziyarətgah olmuşdur. Sonra sovet hökuməti məzarın yerləşdiyi təpəni uçursa da paşanın qəbrini yenə də minlərlə zəvvar ziyarət edirmiş (avqustun 1996-cı il 4-də İsmayıl Ənvər paşanın nəşi təntənəli şəkildə 1993-2000-ci illərdə Türkiyə prezidenti olmuş Süleyman Dəmirələ təhvil verilmişdi). Göründüyü kimi hayklar ac çaqqal sürüsü kimi yalnız gücdən düşmüş tənha aslanları arxadan qapmaqdan başqa bir şeyə qadir deyillər.

2016-cı ildə Ermənistan prezidenti Serjik Sarqsyanın şəxsi təşəbbüsü, erməni kilsəsinin xeyir-duası və ermənilərin böyük canfəşanlığı ilə abidəsi ucaldılmış Qaregin Njdenin (Ter-Arutunyan) şərəfsiz tarixçəsinə, onun ərsəyə gətirdiyi və canla-başla xidmət etdiyi millətçi "tsexakronutyun" (erm. "*tsex*"- nəsil, qəbilə, "*kron*" - din, inanc) ideyalarına nəzər salın və siz ermənilərin hansı şeytana xidmət etdiklərini dərhal görəcəksiz. Daim kleptomaniyaya meyl edən erməni xislətinin ənənəvi plagiat üslubunda, Avropada və dünyada faşist partiyalarının və təşkilatlarının yarandığı bir dövrdə - XX yüzilliyin 30-cu illərində faşist ideologiyasından "kopyaladığı" və yalnız terminləri dəyişdirdiyi tsexakronizmdən beş sətir oxuyun, o zaman siz orada Adolf Hitlerin 1925-1926-cı illərdə dərc olunmuş "Mənim mübarizəm" (alm. *Mein Kampf*) kitabının qatı millətçi məzmununu görəcəksiz. Məsələn, tsexakronizmdəki "qan kultu" (faşizmdə təbliğ olunan "təmiz ari qanı" analyışından götürülüb) və "ulular kultu" isə faşizmdəki "nordizm" (alm. *Nord* - şimal - şimal və ya nord irqinin fövqəltəbiiliyini təbliğ edən ideyadır) ideologiyası ilə eyniyyət təşkil edir [14, s. 419-424]. Alman faşistlərinin əbədi düşmən elan etdiyi yəhudiləri isə tsexakronizmdə ermənilər "türklərlə" əvəz etmişlər. Özünü Njdeyə məxsus "tsexakronizm cəfəngiyyatının" ideoloji davamçısı elan edən Ermənistanın indiki baş naziri N. Paşinyan bununla da neofaşist olmasını etiraf edir və öz faşist sələfinin üzdəniraq qəhrəmanlıqlarına haqq qazandırır. 2019-cu ilin 14 oktyabr tarixində MDB dövlət başçılarının Türkmənistanın paytaxtı Aşqabad şəhərində keçirilən Şura iclasında Azərbaycan Respiblikasının Prezidenti İlham Əliyev Ermənistan rəhbərinin bu iddilarına cavab vermiş və tsexakronizmi klassik faşizm ideologiyası, Paşinyanı isə neofaşist kimi ifşa etmişdi. Biz fəxr edirik ki, müasir milli tariximizdə postmodern şəxsiyyətin numunəsi olan İlham Əliyev kimi istedadlı rəhbərimiz var. O, sözün əsl mənasında dövrümüzün qəhrəmanıdır. Bəlkə də müasir dünya rəhbərləri içərisində ən ağır tarixi vəzifə İlham Əliyevin üzərinə düşür. Bu gün heç bir iqtisadi və hərbi-siyasi problemi olmayan dövləti idarə etmək nə qədər çətindir? Keçmişdən miras qalmış

iqtisadi və hərbi-siyasi problemlərə, fövqəldövlətlərin kaprizlərinə, erməni kimi hiyləgər və çox güclü himayədarları olan düşmənin sərsəm iddialarına layiqli cavab vermək, yüksək şəkildə balanslaşdırılmış siyasət həyata keçirmək, ölkə daxilində davamlı sabitliyə nail olmaq isə hər rəhbərin işi deyil.

1922-1944-cü illərdə Bolqarıstanın paytaxtı Sofiyada yaşayan Njdenin niyə məhz XX yüzilliyin 30-cü illərində "tsexakronizmi ərsəyə gətirməsi", xüsusilə də bu saxtakar ideoloqun hansı mənbədən belə fövqəladə ruhlanması məlum olur. II Dünya müharibəsi dövründə bu cılız sparapetin (erməni dilində hərbi titul, sərkərdə) hitlerizmə xidmət etməsi, Abver (alm. *Abwehr* - dəf etmək və yaxud müdafiə etmək - Üçüncü reyxin kəşfiyyat və əkskəşfiyyat üzrə hərbi təşkilatı), SD (alm. *Sicherheits Dients* - reyxfürerin təhlükəsizlik xidməti) və SS-lə (alm. *SS* - *Schutz Staffeln* - faşist ordusunda hərbiləşdirilmiş təşkilat) əməkdaşlığı, sovet xalqına və ordusuna qarşı hərbi əməliyyatlarda iştirak edən erməni təxribatçı dəstələrinin hazırlanmasına rəhbərlik etməsi hamıya məlumdur. Milli qəhrəman ranqına qaldırılmış Njdenin tsexakronizm illüziyasında xristianlıqdan tədricən imtina etmək və ənənəvi dinə qayıtmaq kimi iddialar da var. Bu da erməni təbiətinin tanrısız məzmunundan xəbər verir. Son illər baş verən hadisələr və Azərbaycan xalqının həm döyüş meydanında, həm də masa arxasında parlaq qələbələri ilahi ədalətin haqqın tərəfində olduğunu bir daha sübut edir.

**Nəticə**

Bu gün müqəddəs Qarabağ torpaqlarında erməni xisləti yenə də ilahi və bəşəri kuralları pozaraq şər əməllərlə məşğul olur və Cənubi Qafqazı növbəti qanlı olaylara sürükləyir. İpə-sapa yatmayan və heç bir pozitiv məzmun kəsb etməyən bu degenerativ toplum münaqişəyə can atmaqla öz miskin varlığını sual altına alır. Özlərini ümumbəşəri dəyərləri tərənnüm edən xristialığın məbsubları elan edən ermənilər dinin möhtəşəm adından kamuflyaj kimi istifadə edirlər. Onlar xristian (isavi) ideologiyasında tərənnüm olunan 10 qadağanın ən azı beşinin üstündən çoxdan və qəti şəkildə xətt çəkiblər:

1. Tanrıya tay axtarma, o təkdir! (ermənilərin üzdəniraq Anait kultuna kütləvi meylləri).
2. Özünə kumir yaratma! (faşizmin təcəssümü olan Njde kultuna monumentin ucaldılması).
3. Öldürmə! (ermənilərin sadist üslubunda son əsrlər boyu türk-müsəlman qanına susaması).
4. Yalançı şahidlik etmə! (sonu olmayan qara erməni yalanlarının həyat tərzinə çevrilməsi).
5. Başqasının malına, əmlakına göz dikmə! (ermənilərə genetik kleptomaniyanın məxsus olması və onların daim özgə yurdlarına və özgə malına göz dikməsi).

Budur nəcib Azərbaycan insanın üzləşdiyi fəlakətin canlı təcəssümü. Bu ölüm-dirim savaşında isə mütləq haqq yolunda olan və Allahın həqiqətlərini tanıyan və onlara əməl edən qalib gələcək!

**İstifadə edilmiş ədəbiyyat**

1. Alram, Michael. Sasanian Iran in the Context of Late Antiquity: The Bahari Lecture Series at the University of Oxford. - BRILL, 2021. - PP. 14-15

2. Бортневский В.Г. Опричнина. Невозвращенец Григорий Агабеков и секретная служба Сталина // Собеседник 1989. № 34 август. С. 12-13

3. Военно-исторический архив, Выпуски 93-96 / М.: Издательский дом «Грааль», 2007. - С. 114

4. Гумилев Л.Н. // Большая российская энциклопедия, т.8 М., 2007, с.155

5. Информационное сопровождение проблемы «Тюркские народы Сибири»: база данных и библиографический указатель // Мандринина Л.А., Рыкова В.В., Бусыгина Т.В., Балуткина Н.А. Труды ГПНТБ СО РАН. -2022. -Т. 0, вып. 2. - С. 70-80

6. Искандарян А. Армения между автократией и полиархией. - Pro et Contra, 2011. - С. 19-28

7. Пассионарная энергия и этнос в развитой цивилизации: Материалы Всерос. междисциплин. науч.-практ. конф. -М.: Изд-во СГУ, 2008. С. 5-8

8. Рустамова-Тогиди С.А. Азербайджанские погромы в Шемахе. 1918 год. (На основе документов Следственной Комиссии Азербайджанской Демократической Республики). М.: АП «Столица», 2016 - 486 с. - С. 38-39

9. Тарасов И.М. Балты в миграциях Великого переселения народов. Ч. I. М.: «Аллея науки» 2017. - С. 96

10. Шнирельман В.А. Войны памяти: мифы, идентичность и политика в Закавказье. М.: ИКЦ «Академкнига», 2003. - С 199

11. Штереншис М. Евреи: история нации. – М:, Герцлия: Исрадон, 2008, с. 113

12. Collier J. The Settlement of Disputes in International Law. Oxford, 1999, p. 265

13. Gerard Chailand, Arnaud Blin. The History of Terrorism: From Antiquity to Al to Al Qaeda. – University of California Press, 2007 - p. 194

14. Lazaridis, Iosif (2016). “Genomic insights into the origin of farming in the ancient Near East”. Nature. 536 (7617): pp. 419-424

## KARABAKH CONFLICT AND A SCIENTIFIC VIEW OF HISTORICAL TRUTH

**T.Guliyeva**
Mingachevir State University

***Abstract:*** *In the article, the Karabakh conflict, as well as the entire ancient and new history of Karabakh, is considered through the prism of scientific realism, the Armenian lies based on purely vulgar myths are methodically and consistently revealed. From a scientific point of view and on realistic notes, the real fact of the historical belonging of Karabakh to the Turkic-Muslim world has been proved and its specific moral and legal status, which determines the native and sacred hearth of Azerbaijanis, has been confirmed. The article especially emphasizes the spiritual, historical, cultural and strategic importance of Karabakh for the modern Terek and Muslim world. Adequate answers are given to many painful questions related to the modern tragic history of Karabakh, as well as to the events taking place in the last 30 years as a result of the Armenian military invasion. The article also reveals the real essence of the Armenians, which constantly plays not a creative, but a destructive, destructive role in the region, which consists in their open support of the notorious party of war and military-political intrigues, the real fact of using them and the Karabakh knot to dismember the Turkic-Muslim peace.*

***Keywords:*** *Karabakh, Islamic civilization, Turkic world, Turkic-Muslim range, Turkic-Muslim cosmopolitanism, Turkic-Muslim passionarity*

## КАРАБАХСКИЙ КОНФЛИКТ И НАУЧНЫЙ ВЗГЛЯД НА ИСТОРИЧЕСКУЮ ИСТИНУ

**Т.А.Гулиева**
Мингячевирский государственный университет

***Резюме:*** *В статье Карабахский конфликт, а также вся древняя и новая история Карабаха рассмотрена через призму научного реализма, методично и последовательно раскрыта армянская ложь, основанная на сугубо вульгарных мифах.Из научной точки зрения и на реалистичных нотах доказан сущий факт об исторической принадлежности Карабаха тюрко-мусульманскому миру и подтвержден его специфический нравственно-правовой статус, определяющий исконно родной исвященный очаг азербайджанцев.В статье особо подчеркнуто духовное, историко-культурное и стратегическое значение Карабаха для современного терского и мусульманского мира. Даны адекватные ответы на*

*многие болезненные вопросы, связанные с современной трагической историей Карабаха, также с событиями, происходящими в последние 30 лет в результате армянского военного вторжения. В статье, также раскрыта настоящая суть армян, постоянно играющая не созидающую, а разрушающую, деструктивную рольв регионе, которая заключается в открытой поддержке ими пресловутой партии войны и военно-политических интриг, указан реальный факт использования их и Карабахского узла для расчленения тюрко-мусульманского мира.*

***Ключевые слова:*** *Карабах, исламская цивилизация, тюркский мир, тюркско-мусульманский ареал, тюркско-мусульманская пассионарность, тюрко-мусульманский космополитизм*

**Elmi redaktor: s.e.f.d., dos. E.Cəfərova**
**Çapa təqdim edən redaktor: tar.f.d., dos. N.Zeynalov**
**Daxil olub: 10.02.2023**
**Çapa qəbul edilib: 17.02.2023**